# Yeni 5 dollarlıq əskinaz

## Daha təhlükəsiz. Daha ağıllı. Daha etibarlı.



# 2008-ci ilin əvvəlində tədavülə buraxılacaq yeni 5 dollarlıq əskinazlar Birləşmiş Ştatların pul vahidinin ən son dizaynına malikdir.

Birləşmiş Ştatların hökuməti əskinazların şəkilini təkmilləşdirərək və yeni təhlükəsizlik elementlərini əlavə edərək saxta pul kəsənləri qabaqlamağa davam edir. ABŞ əskinazlarının yenidən dizayn edilməsi 2003-cü ildə yeni 20 dollarlıq əskinazların tədavülə buraxılması ilə başlamışdır, bunun ardından 2004-cü ildə 50 dollarlıq, 2006-cı ildə isə 10 dollarlıq əskinazların dövriyyəyə buraxılması ilə davam etmişdir. Yeni 5 dollarlıq əskinazın dövriyyəyə buraxılmasından sonra 100 dollarlıq əskinazın dövriyyəyə buraxılması planlaşdırılır.

Yenilənmiş əskinazlar **daha təhlükəsiz, daha ağıllı və daha etibarlıdır**.
**Daha təhlükəsiz**, çünki yoxlanılması daha asandır;
**Daha ağıllı**, çünki zirək hərəkət edən saxta pul kəsənlərdən daha tez hərəkət edir; və
**Daha etibarlı**, çünki ABŞ valyutasının bütövlüyünü daha etibarlı qoruyur.

ABŞ hökuməti təkmilləşdirilmiş təhlükəsizlik xüsusiyyətlərinin istifadəsi, qanunların qətiyyətlə tətbiqi və pulların yoxlama üsullarına dair əhalinin məlumatlandırılması sayəsində ABŞ valyutasının saxtakarlar tərəfindən kəsilməsini aşağı səviyyədə saxlaya bilmişdir, çünki istehlakçıların bilikli olması saxtakarlığa qarşı ən yaxşı müdafiə üsulu olaraq qalır.

Çətinliklə qazandığınız pulu qorumaq üçün öz-özünüzə kömək edin: yeni 5 dollarlıq əskinazların təhlükəsizlik xüsusiyyətlərini öyrənin və öz pulunuzu yoxlayın.

# Asanlaşdırılmış keçid

ABŞ pul vahidinin əskinazları bir o qədər də sezilməyəcək şəkildə yeniləri ilə əvəz olunacaq və bununla yanaşı 1861-ci ildən bəri tədavülə buraxılan bütün əskinazlar öz nominal dəyərlərini saxlayacaqdır. Sizə məxsus əskinazları yeniləri ilə dəyişməyə ehtiyac yoxdur, heç bir ABŞ valyutası birdən tədavüldən çıxarılmayacaq və devalvasiya edilməyəcək. Birləşmiş Ştatlar heç zaman öz pul vahidinin devalvasiyasını keçirməyib. Yeni əskinazlar tədavülə buraxılınca köhnəlmiş əskinazlar bank sistemindən keçərək Federal Rezerv Banka daxil olduqda tədavüldən çıxarılacaqdır.

# Əgər əskinazın saxta olduğundan şübhələnirsinizsə

Əgər siz aldığınız və ya artıq sizdə olan əskinazın saxta olduğundan şübhələnirsinizsə, onu yerli polis şöbəsinə təqdim edin. Əgər əskinaz həqiqidirsə, onu sizə mümkün olan ən qısa vaxtda qaytaracaqlar. Əgər əskinaz saxtadırsa, sizə kompensasiya verilməyəcək. Saxta əskinazın bilə-bilə başqasına verilməsi qanuna ziddir.

# Tədavüldə olan digər əskinazlar






2003-cü il — 20 dollarlıq əskinazlar Amerikan qartalının təsvirinə yaşıl, sarı-narıncı və göy tonlar əlavə edilərək yenidən dizayn edilmişdir.






2004-cü il — 50 dollarlıq əskinazlar Amerikan qartalının təsvirinə göy və qırmızı tonlar və həmçinin Amerikan bayrağı əlavə edilərək yenidən dizayn edilmişdir.






2006-cı il — 10 dollarlıq əskinazlar Amerikan qartalının təsvirinə narıncı, sarı və qırmızı tonlar və həmçinin Azadlıq Heykəlinin təsviri əlavə edilərək yenidən dizayn edilmişdir.

# Yeni 5 dollarlıq əskinaz

## Daha təhlükəsiz. Daha ağıllı. Daha etibarlı.

Birləşmiş Ştatların hökuməti əskinazların şəkilini təkmilləşdirərək və yeni təhlükəsizlik elementlərini əlavə edərək saxta pul kəsənlərdən daha tez hərəkət etməyə davam edir. Yeni 5 dollarlıq əskinazlar 2008-ci ilin əvvəlində tədavülə buraxıldıqdan sonra tədavülə 100 dollarlıq əskinazlar buraxılacaq. Yeni 20 dollarlıq əskinaz 2003-ci ildə, yeni 50 dollarlıq əskinaz 2004-cü ildə, yeni 10 dollarlıq əskinaz isə 2006-cı ildə tədavülə buraxılmışdı.

Yeni 5 dollarlıq əskinaz ilk dəfə 1990-cı illərdə ortaya çıxardılan iki ən vacib təhlükəsizlik xüsusiyyətləri olan su nişanı və təhlükəsizlik telini özündə daşıyır.







### Su nişanı

Yeni 5 dollarlıq əskinaza ikinci su nişanı da əlavə edilmişdir. Əskinazı işığa doğru tutduqda portretin solunda üç ədəd kiçik "5" rəqəmindən ibarət sütun görünür. Su nişanı kağızın özünün bir hissəsidir və əskinazın hər iki üzündən görülə bilər.

### Təhlükəsizlik teli

Əskinazı işığa doğru tutduqda kağızın içinə keçirilmiş və portretin sağ tərəfinə şaquli istiqamətdə uzanan təhlükəsizlik telini (plastik zolağı) görmək mümkündür. "USA" yazısı və onun ardınca gələn "5" rəqəmi bir-birini əvəz edən naxışların içində telin uzunluğu boyunca əskinazın iki tərəfində də görülə bilər. Əvvəlki 5 dollarlıq əskinazlarda tel portretin solunda yerləşirdi.

### Su nişanı

Əskinazı işığa doğru tutduqda portretin sağında yerləşən böyük "5" rəqəmi görünür. O, əvvəlki 5 dollarlıq əskinazlardakı Prezident Linkolnun portreti formasında su nişanını əvəz edir. Onun yeri fon dizaynının içinə salınmış boş çərçivə ilə vurğulanır.




### Azadlıq rəmzi

Yeni dizayn edilmiş 5 dollarlıq əskinazın fonuna Amerikanın azadlıq rəmzi olan Birləşmiş Ştatların Böyük Möhürü əlavə edilmişdir. Bu rəmzdə bənövşəyi rənglə qartal və qalxan təsvir edilmiş və o, Prezident Linkolnun portretinin yanında yerləşdirilmişdir. Portreti və Böyük Möhürü isə bənövşəyi rəngli ulduz qövsü əhatə edir. Müxtəlif nominallı əskinazlardakı azadlıq rəmzi biri-birindən fərqlidir.



### Federal Rezerv Bankının İşarələri

Portretin solundakı universal möhür Federal Rezerv Sisteminin ümumi rəmzidir. Sol seriya nömrəsinin aşağısındakı hərf və rəqəm əskinazı tədavülə buraxan Federal Rezerv Bankı müəyyənləşdirir.




### Portret və vinyetka

Əskinazın üz tərəfində, Prezident Linkolnun portretinin ətrafındakı oval çərçivə və əskinazın arxasındakı Linkoln Abidəsinin vinyetkası çıxardılmışdır. Portret yuxarıya doğru çəkilmiş, onun çiyinləri isə çərçivənin içinə qədər uzanmışdır. Linkoln Abidəsini buludlu göydən ayırmaq məqsədilə vinyetkaya xırda elementlər əlavə edilmişdir.



### Görmə qabiliyyəti zəif olanlar üçün xüsusiyyətlər

Görmə qabiliyyəti zəif olan insanların nominalı seçə bilmələrinə kömək etmək məqsədilə yeni 5 dollarlıq əskinazın arxa tərəfində, alt sağ küncündəki "5" rəqəmi asanlıqla oxuna bilməsi üçün böyüdülmüş və yüksək kontrastlı bənövşəyi mürəkkəblə çap olunmuşdur.




### Mikroçap

Çox kiçik olduqlarına görə mikroçap üsuluyla çap olunmuş yazını təqlid etmək çətindir. Yeni 5 dollarlıq əskinazın üz tərəfindəki mikroçap üsuluyla işlənmiş detallar əskinazın üç hissəsində yerləşdirilmişdir: bir neçə dəfə təkrar olunmuş "FIVE DOLLARS" yazısını əskinazın sol və sağ çərçivəsinin içində tapmaq mümkündür; "E PLURIBUS UNUM" yazısını isə qalxanın üst tərəfində, Böyük Möhürün içində görünür, "USA" yazısını isə qalxanın sütunlarının arasında təkrar olunmuşdur. skinazın arxa tərəfindəki "USA FIVE" yazısı isə görmə qabiliyyəti zəif olanlar üçün nəzərdə tutulan böyük bənövşəyi "5" rəqəminin bir kənarı boyunca həkk olunmuşdur.



### Kağız

Əskinaz kağızının dörddə birini kətan, dörddə üçünü isə pambıq təşkil edir; kağız qırmızı və göy rəngli lifləri də ehtiva edir.




### Rəng

Yeni dizaynda ən çox nəzərə çarpan fərq, əskinazın mərkəzinin açıq bənövşəyi rəngdə olması, kənarlara doğru isə boz rəngə keçməsidir. Sarı rəngli kiçik "05" rəqəmləri əskinazın üz tərəfində, portretin solunda həkk olunmuşdur, əskinazın arxa tərəfində isə Linkoln Abidəsinin ətrafındakı vinyetkanın sağında yerləşdirilmişdir.



### Seriya nömrəsi

On bir rəqəm və hərfdən ibarət unikal kombinasiya əskinazın üz tərəfində iki yerdə həkk olunmuşdur. Yeni 5 dollarlıq əskinazdakı sol seriya nömrəsi əvvəlki dizaynlara nisbətən bir az sağa doğru çəkilmişdir.

Yeni əskinazlar haqqında daha ətraflı məlumat almaq üçün **www.moneyfactory.gov/newmoney** saytını ziyarət edə bilərsiniz.